*Siz öz hüquqlarınızı bilməlisiniz*

# Vətəndaş olduğunu hiss et

Tbilisi
2009

Bu kitab Avropa Komissiyasının maliyyələşdirdiyi "Qadınlar və gənclər proqres və demokratik dəyişikliklər" layihəsi çərçivəsində "Siz öz hüquqlarınızı bilməlisiniz" seriyasından Gürcüstan Beynəlxalq gənclər assosiyasının birinci nəşridir.

Bu nəşrin məqsədi əhalini Gürcüstan Mülki Reyestrində sənədlərin doldurulmasının əsas qaydaları ilə tanış etməkdən ibarətdir.

Materialları təqdim etdiyinə görə, Gürcüstan Mülki Reyestr xidmətinə təşəkkür edirik.

*Naşir:*

Gürcüstan Beynəlxalq gənclər assosiasiyası.

*Kitab üzərində işləyiblər:*

Edqar Bitbunov, İrina Sorokina.

# Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi

Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi şəxsin Gürcüstan vətəndaşlığını, onun kimliyini və yaşayış yerini təsdiq edir.

16 yaşı tamam olan vətəndaş Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsini almağa borcludur.

***Şəxsiyyət vəsiqəsini ilk dəfə almaq üçün təqdim edin:***

- Doğum şəhadətnaməsi (əsli və kopiyası)
- Mənzil sahibinin razılığı ilə doldurulmuş forma
- İki rəngli fotoşəkil (CD diskə alınmaş)

Əgər şəxs şəxsiyyət vəsiqəsini ilk dəfə alırsa ona vurulan fotoşəkildə əks olunmuş şəxsin identliyini şəxsi məsuliyyəti altında həddi buluğa çatmış şəxs: ailə üzvləri, himayədarı, qayğı göstərəni, uşaq müəssisəsinin rəhbəri, ümumtəhsil müəssisəsinin rəhbəri, müvafiq ərazi orqanının rəhbəri (müşavir) ya da məhlə inspektoru təsdiq etməlidir.

16 yaşı keçən şəxs əlavə olaraq, şəxsiyyətini təsdiq edən digər sənəti təqdim etməlidir.

Əgər təqdim olunan sənəd şəxsiyyətin Gürcüstan vətəndaşlığını təsdiq edə bilmirsə, şəxsin həmçinin Gürcüstan vətəndaşlığını təsdiq edən sənədi yaxudsa, Gürcüstan

ərazisində qanunla müəyyən olunmuş müddət ərzində yaşadığını təsdiq edən sənədi təqdim etməlidir.

Yaşayış yeri olmayan şəxs ünvanı göstərmədən qeydiyyatı, olduğu yaşayış məntəqəsinə görə keçəcək. O, 6 ayda bir dəfə qeydiyyatda olduğu ərazi xidmətinə getməyə borcludur.

***Vaxtı keçmiş şəxsiyyət vəsiqəsini və yaxud sovet simvolikalı pasportu dəyişmək üçün təqdim edin:***

- Dəyişdiriləcək şəxsiyyət vəsiqəsini yaxud sovet simvolikalı pasportu;
- İki rəngli fotoşəkil (CD diskdə)

1. Yaşayış yerinizi dəyişirsinizsə, təqdim edin:

Evin sahibi – mülkiyyəti təsdiq edən sənədin əslini, kopiyası ilə birlikdə;

Digər şəxslər – ev sahibinin razılığı (mülkiyətçinin razılığının doldurulmuş forması);

2. Yazıda yanlışlığı müəyyən edərkən əlavə olaraq, bu yanışlığı təsdiq edən sənədi təqdim edin.

***İtmiş şəxsiyyət vəsiqəsinin əvəzinə yeni vəsiqə götürmək üçün təqdim edin:***

- Doğum şəhadətnaməsi ya da şəxsiyyəti təsdiq edən digər sənəd (əsli və kopiyası)

- İki rəngli fotoşəkil (CD diskdə)
- Hərhansı bankdan cərimənin ödənilməsini təsdiq edən qəbz. Cərimənin miqdarı 3 laridir.

Əgər itmiş şəxsiyyət vəsiqəsi mülki reyestr agentliyinin digər ərazi xidmətində alınmışdırsa 3 şəkil təqdim edin. Qeydiyyat üçün isə, evin mülkülüyünü təsdiq edən sənədi və yaxud ev sahibinin razılığının müəyyən olunmuş formasını.

***Vətəndaşa şəxsiyyət vəsiqəsi lazımdır:***

- Ali məktəbə təqdim etmək üçün
- Mülki aktların qeydiyyatı zamanı
- Bank məhsulları ilə faydalanan zaman
- Sığorta ilə faydalanarkən
- Dövlət və özəl təşkilatlarla münasibətlərdə
- Hərhansı sənədi alarkən

## Müddətlər və giymətlər.

- Ərizə verdikdən sonra 10-cu iş günündə şəxsiyyət vəsiqəsi pulsuz verilir.
- 5-ci iş günündə xidmətin qiyməti – 5 lari təşkil edir
- 3-cü iş günündə xidmətin qiyməti - 10 lari təşkil edir
- 24 saat keçən kimi, xidmətin qiyməti - 25 lari təşkil edir
- Həmin gün göstərilən xidmətin dəyəri 50 lari təşkil edir

# Gürcüstan vətəndaşının pasportu

Gürcüstan vətəndaşının pasportu Gürcüstan vətəndaşının şəxsiyyətini və vətəndaşlığını təsdiq edən sənəddir, necə Gürcüstan ərazisində, eləcə də onun hüdudlarından kənarda. Vətəndaş, qeydiyyat yerinə baxmayaraq, pasportu mülki reyestrin hər hansı ofisində ala bilər.

Vətəndaşın eyni vaxtda bir neçə pasportu ola bilər.

***Gürcüstan vətəndaşının pasportu olmadığı halda:***

- Ölkənin sərhədini keçə bilməzsiniz
- Ölkəyə qayıda bilməzsiniz
- Trefikinqin qurbanı ola bilərsiniz

***Gürcüstan vətəndaşı pasportunu almaq və ya dəyişmək üçün lazımdır:***

- Şəxsiyyət vəsiqəsi (əsli və kopiyası)
- İki rəngli bioşəkil (CD diskdə)
- Dövlət rüsumu ödəmə qəbzi
- Pasportu dəyişdirmək halında – köhnə pasport

***16 yaşınadək uşaqlar üçün lazımdır:***

- Doğum şahadətnaməsi (əsli və kopiyası)
- Pasportu almaq barədə hər iki valideynin notarius qaydası ilə təsdiq olunmuş razılığı (əsli)

- Valideynlərdən birinin şəxsiyyət vəsiqəsi (əsli və kopiyası)
- Mənzil sahibinin razılığının doldurulmuş forması
- Dövlət rüsumunun ödənilməsini təsdiq edən qəbz – 32 səhifəliyə – 17, 50 lari, 48 səhifəliyə – 30 lari
- İki rəngli bioşəkil (CD diskə alınmış)

***16-dan 18 yaşınadək uşaqlar üçün lazımdır.***

- Doğum şəhadətnaməsi (əsli və surəti)
- Şəxsiyyət vəsiqəsi (əsli və kopiyası)
- Pasportun alınmasına dair hər iki valideynin notarius qaydasında təsdiq olunmuş razılığı (əsli)
- İki rəngli bioşəkil (CD diskə alınmış)
- Dövlət rüsumunun ödənilməsini təsdiq edən qəbz

**Qiymətlər və müddətlər**

- 32 səhifəli pasporta dövlət rüsumu – 35 lari
- 48 səhifəli pasporta dövlət rüsumu – 60 lari

**Xidmət**

- Ərizə verdikdən sonra 10-cu iş günündə pasportun verilməsi xidməti pulsuzdur
- 5-ci iş günündə xidmətin dəyəri 25 lari təşkil edir
- 3-cü iş günüdə xidmətin dəyəri 55 lari təşkil edir

- 24 saat keçər-keçməz xidmətin dəyəri 125 lari təşkil edir
- Ərizə verilən gün xidmətin dəyəri 170 larini təşkil edir

## Dövlət rüsumunun verilməsi üzrə kateqoriyalara görə güzəştlər tətbiq olunub.

***Vergidən azad olunurlar:***

- İkinci dünya müharibəsi iştirakçıları;
- Gürcüstanın ərazi bütövlüyü, azadlığı və müstəgilliyi üçün döyüş əməliyyatlarında əlil olan Gürcüstan vətəndaşları;
- Gürcüstan prezidenti tərəfindən Gürcüstan vətəndaşlığı verilmiş xarici ölkənin vətəndaşları;

***Verginin 50 faizi ilə yararlanırlar:***

- Müharibə və silahlı qüvvələrin veteranları;
- Məcburi köçkün şəxslər (qaçqınlar);
- I və II qrup əlilləri;
- 16 yaşınadək şəxslər;

## Yaşamaq vəsiqəsi

Yaşamaq vəsiqəsi Gürcüstanda yaşayan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin kimliyini, vətəndaşlığını və yaşayış yerini təsdiq edən sənəddir.

İki tip yaşamaq vəsiqəsi mövcuddur: Müvəqqəti və daimi. Yaşamaq vəsiqəsi yaşamaq üçün verilən icazə əsasında təqdim olunur. Yaşamaq üçün verilən icazə də iki növdən ibarətdir: Müvəqqəti və daimi. Yaşamaq üçün icazə əcnəbilərə və vətəndaşlığı olmayan lakin 90 gündən artıq Gürcüstan ərazisində qalan şəxslərə verilir. Gürcüstanda daimi yaşamaq üçün icazə almağa xüsusi izin aşağıdaki kateqoriyaya aid əcnəbilərə lazım deyildir.

- 1993-cü il martın 27-də Gürcüstan ərazisində daim yaşayan və Gürcüstan vətəndaşları sayılmayan, 1993-cü il martın 27-dən sonra Gürcüstanda daimi qeydiyyatdan çıxmayan şəxslərə.
- Gürcüstanda daim yaşamaq istəyən və vətəndaşlığı kəsilən (Vətəndaşlıqdan çıxmaq yaxud vətəndaşlığı itirmək forması ilə) şəxslərə.

Yaşamağa icazə verilməsi məsələsini Gürcüstan Ədliyyə nazirliyinin mülki məsələlər departamenti müzakirə və həll edir. Yaşamaq vəsiqəsini isə, mülki reyrestr agentliyinin ərazi xidmətləri verir.

Daimi yaşamaq vəsiqəsini mülki reyestr agentliyinin ərazi xidməti şəxsin yaşayış yeri əsasında verir. Müvəqqəti yaşayış vəsiqəsini isə, Vake-Saburtalo və Batumi xidmətləri verir.

***Yaşayış vəsiqəsini almaq üçün lazımdır:***

- Gürcüstanda qanuni yaşamağı təsdiq edən sənəd (daimi ya da müvəqqəti yaşamağa icəzə);
- Xarici dövlətin vətəndaşlığını və ya vətəndaşlığının olmadığını təsdiq edən sənəd
- İki fotoşəkil (3,5X4,5 sm);
- Ev mülkiyyətini təsdiq edən sənəd və ya ev sahibinin razılığı, bu da ev sahibinin yaxud dövlət mülkiyyətində olan evin kiraçısının yazılı şəkildə razılığı deməkdir, müvafiq olaraq, mülkiyyəti və ya kiralığı təsdiq edən sənədin notarius qaydasında təsdiq olunmamış şəkildə təqdim olunması. (Bu son maddə ilə nəzərdə tutulan tələb yalnız daimi yaşamaq vəsiqəsini alan şəxslərə aiddir).

Gürcüstanda yaşayan əcnəbilərin qeydiyyatı Gürcüstan qanunvericiliyinə zidd deyilsə, ünvanı göstərmədən də mümkündür.

Mülki reyestr agentliyi həmçinin qaçqınların müvəqqəti yaşayış vəsiqəsini də verir. Qaçqının müvəqqəti yaşayış vəsiqəsini Didube, (Tbilisi) və Axmeta ərazi xidmətləri verir. Qeyd olunan vəsiqə 3 illik müddətlə verilir.

***Qaçqının müvəqqəti yaşayış vəsiqəsini almaq üçün lazımdır:***

- Qaçqınlar və məskunlaşdırma nazirliyi tərəfindən verilmiş qaçqın statusunu təsdiq edən sənəd;

- Fotoşəkil 3,5X4,5 sm;

Müvəqqəti yaşayış vəsiqəsinə qaçqın kimi tanınan şəxsin vətəndaşlığı ilə yanaşı «qaçqın» sözü də yazılacaq. Müvəqqəti yaşayış vəsiqəsinə qaçqının özünün göstərdiyi ünvan yazılır.

**Qiymətlər və müddətlər**

Müvəqqəti yaşayış vəsiqəsi müvəqqəti yaşayış icazəsinin qüvvədə olduğu müddətlə verilir. Daimi yaşayış vəsiqəsi 5 illik müddətlə verilir.

Yaşayış vəsiqəsinin verilməsinə rüsum ödənilmir, ancaq xidmət üçün dəyərin cədvəli belədir:

- Ərizə verdikdən 10-cu iş günündə vəsiqə qiymət ödnilmədən verilir;
- Ərizə verdikdən 5-ci iş günündə vəsiqə vermək üçün 5 lari ödənilir;
- Ərizə verdikdən üçüncü iş günündə 10 lari ödənilir;
- 24 saat keçdikdən sonra – 25 lari ödənilir;
- Həmin gün ərizə veriləndə xidmətin dəyəri 50 laridir;

## Doğum qeydiyyatı

Doğum haqqında şəhadətnamə ölkənin hər bir vətəndaşının doğulması faktını təsdiq edən

sənəddir. Doğum şəhadətnaməsi məktəbə təqdim etmək üçün və şəxsiyyəti təsdiq edən sənədi almaq üçün vacibdir.

## Doğum qeydiyyatı üçün lazımdır

***Valideynlər niqahda olduğu halda:***

- Valideynlərin birgə yazılı ərizələri;
- Nigah şəhadətnaməsi;
- Valideynlərin şəxsiyyətini təsdiq edən sənəd;
- Uşağın doğulmasına dair tibbi müəssisə tərəfindən verilən arayış və ya məhkəmə qərarı;

***Valideynlərin nigahda olmadıqları halda:***

- Valideynlərin birgə yazılı bəyanatı ya da qanunla nəzərdə tutulmuş hallarda atanın ərizəsi və atalığın müəyyən edilməsinə dair məhkəmə qərarı;
- Valideynlərin şəxsiyyətini təsdiq edən sənəd;
- Uşağın doğulmasına dair tibbi müəssisə tərəfindən verilən arayış və ya məhkəmə qərarı;

***Ananın nigahda olmadığı halda:***

- Ananın yazılı ərizəsi (müvafiq qayda ilə təsdiq olunmuş);
- Ananın şəxsiyyətini təsdiq edən sənəd;
- Uşağın doğulmasına dair tibbi müəssisə tərəfindən verilən arayış və ya məhkəmə qərarı;

**Müddətlər və qiymətlər**

Doğum şəhadətnaməsi pulsuz verilir, ərizənin verilməsi və qeydiyyatı üçün qanunla nəzərdə tutulmuş sənədləri təqdim edən gün.

## Atalığın müəyyən edilməsinin qeydiyyatı.

***Atalığı müəyyən edən vəsiqəni almaq üçün təqdim etməliyik:***

***Atalığın müəyyən edilməsi valideynlərin qarşılıqlı razılığı ilə gerçəkləşdiyi halda lazımdır:***

- Birgə yazılı ərizə;
- Uşağın doğum şəhadətnaməsi;
- Valideynlərin şəxsiyyətini təsdiq edən sənəd;

***Atalığın müəyyən edilməsi atanın ərizəsinin əsasında gerçəkləşdiyi halda lazımdır:***

- Atanın yazılı ərizəsi;
- Atanın şəxsiyyətini təsdiq edən sənəd;
- Uşağın doğum şəhadətnaməsi;
- Ananın vəfat etməsinə dair vəsiqə və ya anadan valideynlik hüququnun alınmasına, ananın itkin düşməsinə ya da iş qabiliyyətindən məhrum olmasının etirafına dair məhkəmə qərarı;
- Atalığın müəyyən edilməsinə dair məhkəmə qərarı;

Əgər atalığın müəyyən olunması atanın arzusunun əksinə aparılırsa, ata ya vəfat edib ya da onun itkin düşdüyü təsdiq olunubsa, atalığın müəyyən edilməsinin qeydiyyatı və vəsiqə almaq üçün ikinci valideyn təqdim etməlidir:

***Atalığın müəyyən edilməsi atanın istəyi olmadan gerçəkləşirsə:***

- Valideynin yazılı ərizəsi;
- Uşağın doğum şəhadətnaməsi;
- Valideynin şəxsiyyətini təsdiq edən sənəd;
- Atalığın müəyyən edilməsinə dair məhkəmə qərarı;

***Əgər ata vəfat edib va ya itkin düşübsə:***

- Valideynin yazılı ərizəsi;
- Uşağın doğum şəhadətnaməsi;
- Valideynin şəxsiyyətini təsdiq edən sənəd;
- Şəxsin izi qalmadan itkin düşməsinin etirafına dair məhkəmə qərarı, ya da atanın vəfatına dair şəhadətnamə;
- Atalığın müəyyən edilməsinə dair məhkəmə qərarı;

**Müddətlər və qiymətlər**

Vəsiqə pulsuz verilir, ərizənin verilməsi və qeydiyyatı üçün qanunla nəzərdə tutulan sənədləri təqdim edən gün.

# Nigah qeydiyyatı

Nigah aktının qeydiyyatı cütün nigaha girməsini hüquqi cəhətdən təsdiq edir.

***Nigah aktının qeydiyyatı üçün lazımdır:***

- Nigahlanacaq şəxslərin birgə yazılı ərizələri;
- Nigahlanacaq şəxslərin şəxsiyyətini təsdiq edən sənəd;
- Əvvəlki nigahın pozulmasını təsdiq edən sənəd (buna qədər nigahlanan şəxs üçün);
- Dövlət rüsumunu ödənilməsini təsdiq edən qəbz;

## Müddətlər və qiymətlər

Şəhadətnamə ərizənin verilməsi və qeydiyatı üçün qanunla nəzərdə tutulan sənədləri təqdim edən gün verilir.

Nigah qeydiyyatı nigahlanacaq şəxslər tərəfindən seçilmiş yerə görə: təntənəli şəkildə – xüsusi ritual xidmətləri ilə mülki reyestr binasında və ya binanın xaricində keçirilir.

- Dövlət rüsumu ödənişi doqquz laridir;
- Mülki reyestr agentliyi binasının xaricində nigah qeydiyyatı və müvafiq şəhadətnamənin verilməsi üçün dövlət rüsumu 9 laridir, xidmət dəyəri isə, 170 laridir.
- Təntənəli şəkildə nigah qeydiyatı və

müvafiq şəhadətnamənin verilməsi üçün dövlət rüsumu 9 lari, xüsusi ritual xidmətinin dəyəri isə, 120 laridir.

## Boşanma aktının qeydiyyatı

***Boşanma aktının qeydiyyatı üçün lazımdır:***

- Ər-arvadın birgə yazılı ərizəsi;
- Şəxsiyyəti təsdiq edən sənəd;
- Nigah şəhadətnaməsi;
- Boşanma barədə qanuni qüvvədə olan məhkəmə qərarı;

Ər-arvaddan birinin yazılı ərizəsi əsasında boşanma aktının qeydiyyatı üçün əlavə olaraq, qanuni qüvvədə olan, ikinci tərəfin iş qabiliyyətsizliyi və ya iz buraxmadan itkin düşməsinin etirafı barədə məhkəmə qərarı, yaxud hər iki tərəf cinayət üçün ən azı üç il müddəti ilə azadlıqdan məhrum edilibsə.

- Boşanmanın qeydiyyatına dair ərizə, ər-arvaddan birinin yaşayış yerinə görə mövcud olan mülki reyestr agentliyinin müvafiq ərazi xidmətinə verilməlidir.

### Müddətlər və qiymətlər.

- Dövlət rüsum ödənişi – 45 lari;
- Boşanma şəhadətnaməsi – ərizə və qeydiyyat üçün qanunla nəzərdə tutulan

sənədlərin təqdim olunduğu gündən bir ay keçdikdən sonra verilir.

# Övladlıq etmə qeydiyyatı.

***Övladlıq etmə qeydiyyatı üçün lazımdır:***

- Övlad götürənin yazılı ərizəsi;
- Övlad götürmə barədə məhkəmənin qanuni olaraq, qüvvəyə girdiyi qərarı;
- Övlad götürülənin doğum şəhadətnaməsi;
- Övlad götürənin şəxsiyyətini təsdiq edən sənəd;

**Müddətlər və qiymətlər.**

Vəsiqə pulsuz verilir, ərizənin verilməsi və qeydiyatı üçün qanunla nəzərdə tutulan sənədləri təqdim edən gün.

# Adın, soyadın dəyişdirilməsi qeydiyyatı.

***Adın, atanın adının və soyadın dəyişdirilməsinin qeydiyyatı üçün lazımdır:***

- Ərizə verənin şəxsiyyətini təsdiq edən sənəd;
- Ərizə verənin doğum şəhadətnaməsi;
- Ərizə verənin nigah şəhadətnaməsi, əgər o, nigahdadırsa;
- Ərizə verənin natamam yaşlı övladlarının doğum vəsiqələri, əgər onun natamam yaşlı övladları varsa;

- Valideynin (valideynlərin), valideyni əvəz edən şəxslərin yazılı razılığı, ərizə verən şəxs tərəfindən adın, atasının adının, soyadının dəyişdirilməsi barədə – əgər ərizə verən 16-dan 18 yaşınadək natamam yaşlıdırsa;
- Əgər ərizəçi faktiki tərbiyəçisinin və ya özünün birbaşa öz əqrəbəsinin soyadını qəbul etmək istəyirsə, müvafiq faktı təstiq edən sənədlər;
- Gürcüstanın Daxili İşlər Nazirliyinin müvafiq orqanı tərəfindən mühakimlik barədə verilmiş arayış;

**Müddətlər və qiymətlər.**

- Dövlət rüsum ödənişi – 50 lari
- Ad, atanın adı və soyadın dəyişdirilməsi üçün 2 aylıq müddət tətbiq olünüb. Vəsiqə aktın qeydiyyatından həmən sonra verilir.

***Adın ya da soyadın dəyişdirilməsi aşağıdakı səbəbdən birinin mövcud olöuğu halda mümkündür:***

- Ad və soyad çətin tələfüz olunur, gözəl səslənmir və yorucudur,
- Ərizəçi istəyir ki, öz soyadına həyət yoldaşının soyadını qatsın və ya onu qəbul etsin, əgər bu nigah qeydiyyatı zamanı mümkün olmadısa.
- Ərizəçi istəyir özünün faktiki tərbiyəçisinin soyadını qəbul etsin,

• Ərizəçi istəyir özünün nigaha qədərki soyadını gaytarsın, əgər bu boşanma qeydiyyatı zamanı gerçəkləşmədisə.

• Ərizəçi istəyir özünün birbaşa əqrəbəsinin, özəlliklə anasının, atasının, nənəsinin, babasının və s. soyadını qəbul etsin.

## Ölüm aktının qeydiyyatı

Ölüm aktının qeydiyyatı insanın vəfat etməsini təsdiq edir. Qəbristanlıq administrasyasının ölüm şəhadətnaməsi olmadan cənazəni dəfn etməyə ixtiyarı yoxdur.

***Ölüm qeydiyyatı üçün zəruri olan sənədlər:***

• Əpizə;

• Ərizəçinin şəxsiyyətini təsdiq edən sənəd;

• Vəfat edənin şəxsiyyətini təsdiq edən sənəd;

• Vəfat etməni təsdiq edən sənədlərdən biri:

• Vəfata dair səhiyyə müəsisəsi tərəfindən verilən sənəd;

• Vəfat etmə faktının müəyyən edilməsinə dair məhkəmə qərarı.;

### Müddətlər və qiymətlər

Vəfat etmə şəhadətnaməsi pulsuz verilir;

Şəhadətnamə ərizənin verildiyi və qeydiyyat üçün qanunla nəzərdə tutulan sənədlərin təqdim olunduğu gün verilir.

## Mülki aktlar qeydiyyatının təkrar şəhadətnamələrinin və arayışlarının verilməsi qaydaları

Təkrar şəhadətnamələr və arayışlar adlarına mülki aktların qeydləri olan şəxslərə verilir.

- Vəfat etməyə dair təkrar şəhadətnamə və arayış vəfat edənin qohumlarına və digər maraqlanan şəxslərə verilir.
- Vəfat edənin adına tərtib olunan mülki aktlar qeydiyyatının təkrar şəhadətnamələri vəfat edənin qanuni və ya vəsiyyət edilən varisinə verilə bilər.
- Doğum haqqında təkrar şəhadətnamə həmçinin valideynlərə, himayədarlara, himayədarlıq və qayğıkeşlik edən orqanların nümayəndələrinə verilir.
- İşqabiliyyətindənməhrumolanşəxslərinmülki aktlar qeydiyyatının təkrar şəhadətnamələri və arayışları onların himayədarlarına verilir.
- Təkrar şəhadətnamələr notaryus qaydası ilə təsdiq olunmuş etibarnamə əsasında digər şəxslərə də verilə bilər.

***Mülki aktlar qeydiyyatının təkrar şəhadətnaməsi və arayışlarının verilməsi verilməsi üçün lazımdır:***

- Ərizəçinin şəxsiyyətini təsdiq edən sənəd;
- Dövlət rüsumunun ödənilməsinə dair qəbz.

## Müddətlər və qiymətlər

- Ərizə verildikdən 5-ci iş günündə mülki aktlar qeydiyyatının təkrar şəhadətnaməsi və arayışlarının verilməsi üçün dövlət rüsümü 2 laridir.
- 3-cü iş günündə dövlət rüsumuna xidmət dəyəri olan 5 lari əlavə olunur.
- 24 saai keçən kimi dövlər rüsumuna 15 lari əlavə olunur.
- həmin gün isə dövlət rüsumuna xidmət dəyəri 25 lari əlavə olunur.

# Xidmət mərkəzləri

***Regionlar***

- Abaşa – Uça Kaçarava k. № 2
- Adigen – Mesxeti k. № 19
- Ambrolauri – D. Ağmaşenebeli k. № 24
- Ajaris temi – Yuxari Abxazya, Ajara kəndi
- Aspindza – Vardziya k. № 93
- Abxazya – Tbilisi ş. Dadiyani k. II m/r, III korpus
- Axalqori – Tamar Mepe № 12
- Axaltsixe – Ketsxoveli k. № 6
- Axmeta – Çolokaşvili k. № 50
- Batumi – Parnavaz Mepe k. № 4
- Bağdat – Vaja Pşavelə k. № 5
- Bolnisi – D. Ağmaşenebeli k. № 113
- Borcomi – Rustaveli meydanı № 1

- Qali – Zuqdidi ş. Qamarcveba k. № 5
- Qardabani – Ağmaşenebeli k. № 34
- Qori – Samepo k. № 54
- Qori rayonu – Eredvi kəndi
- Qurcaani – Rustaveli k. № 20
- Dedoplistskaro – Rustaveli k. № 64
- Dmanisi – 9 aprel k. № 15
- Duşeti – Stalin k. № 27
- Keda qəs. – Kostava k. № 2
- Eredvi – Qori rayonu Eredvi icması
- Vani – Azadlıq k. № 63
- Zestafoni – Parnavaz k. № 1
- Zuqdidi – Kostava k. № 58
- Tetritskaro – Tamar Mepe k. № 38
- Telavi – Telavi, Tbilisi şosesi № 26
- Tercola – Rustaveli k. № 95
- Tianeti - Rustaveli k. № 8
- Kaspi - Stalin k. № 126
- Laqodexi – 26 may k. № 19
- Lançxuti – Jordanya k. № 128
- Lentexi – Ağmaşenebeli k. № 22
- Marneuli – Qoqebaşvili k. № 6
- Martvili – Qaxokrdze k. № 5
- Mestiya – Seti meydanı 7
- Mtsxeta – Ğvinciliya k. № 2
- Ninotsminda – Azadlıq k. № 52
- Ozurqeti – Apolon Tsuladze k. № 7
- Oni – Ağmaşenebeli meydanı № 1

- Rustavi – Pirosmani k. № 19
- Saqareco – D. Ağmaşenebeli k. № 25
- Samtrediya – Rustaveli k. № 28
- Saçxere – Azadlıq k. № 20
- Senaki – Nino Tsmində k. № 11
- Siğnaği – Kostava k. № 10
- Tğibuli – Axobadze k. № 12
- Poti – 9 aprel x. №26
- Kareli – Tbilisi k. № 26
- Keda – Keda qəsəbəsi, Çavçavadze k. № 5
- Kobuleti – D. Ağmaşenebeli pr. № 143
- Kutaisi – Qamsaxurdiya k. 15
- Kurta icması – Qori rayonunun Kurta kəndi
- Kazbeqi – Abmaşenebeli k. № 9
- Ğvareli – Çavçavadze k. № 67
- Şuaxevi – Pustaveli k. № 12
- Çoxotauri – Quriya k. № 1
- Çxorotsğu – Zaza Naçğebiya k. № 3
- Tsaqeri – Tamar Mepe k. № 28
- Tsalencixa - Tamar Mepe k. № 49
- Tsalka – 25 mart k. № 66
- Tsxaltubo – Rustaveli k. № 25
- Çiyatura – Ninoşvili 7
- Xaraqauli – Solomon Mepe k. № 19
- Xaşuri – Lomori k. № 16
- Xelvaçauri - Tamar Mepe k. № 12

- Xobi – Kostava k. № 3
- Xoni – Mose Xoneli k. № 1
- Xulo – Xulo qəs. Rustaveli dong. № 1

*Tbilisi*

- Qldani – Saracişvili pr. № 3
- Didube – Tsereteli pr. № 67
- Vake – Abaşidze k. № 68
- İsani – K. Tsamebuli k. № 65
- Mtatsminda- Krtsanisi – Brose k. № 1
- Nadzaladevi – Quramişvili pr. № 17
- Saburtalo – Pancikidze (Budapeşt) k. № 2
- Samqori – Trialeti k. № 50
- Çüğüreti – Çikobava k. № 22

**Mülki reyestr**
**Qaynar xətt - 34 04 94**